# İSMAYILOV ETİBAR BƏYLƏR OĞLU



29 mart 1964-cü ildə Ağcabədi rayonunun Hindarx kəndində anadan olmuşdur. 1981-ci ildə orta məktəbi bitirmiş və çilingər kimi əmək fəaliyyətinə başlamışdır. 1990-cı ildən başlayaraq torpaqlarımızın müdafiəsində fəal iştirak edərək igidlik göstərmiş və Ağdamdakı özünümüdafiə batalyonuna daxil olmuşdur. O, Naxçıvanik, Şelli kəndərinin müdafiəsində şəxsi nümunə göstərmişdir. Xocavənd rayonunun ərazisində erməni hücumlarını dəf etmiş, Ağcabədidə yaradılan özünümüdafiə taboruna qoşulmuşdur. 1994-cü ildə Xocavənd rayonunun Qarakənd istiqamətində aparılan əməliyyatlar zamanı döyüşdə yoldaşlarının mühasirədən çıxarılmasında igidlik göstərərək, özü qəhrəmancasına həlak olmuşdur. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli 86 saylı Fərmanı ilə İsmayılov Etibar Bəylər oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Hindarx kənd orta məktəbi onun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur.